/

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:
_____________ dos. Zaur Məmmədov
" __ " _____________ 2026-cı il

**Fənn sillabusu**

**İxtisasın şifri və adı:** 6001022 Təsviri incəsənət müəllimliyi
**Fakültə**: Tarix-coğrafiya və incəsənət
**Kafedra:** Pedaqogika, psixologiya və incəsənət

**I. Fənn haqqında məlumat:**

**Fənnin adı:** S\f Azərbaycanda xalçaçılıq sənəti
**Kodu:** İPFS-B00.5
**Tədris ili:** III (2025/2026) Semestr: VI
**Tədris yükü:** Cəmi: 210 saat , Auditoriya saatı- 75 (30 saat mühazirə, labarator məşğələ 45 saat)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 7 kredit

**II. Müəllim haqqında məlumat:**

**Soyadı, adı, ata adı, dərəcəsi və elmi adı:** *baş müəllim Dadaşova Aytən Natiq qızı*
**Kafedranın ünvanı:** Lənkəran ş., Ə.Məmmədov küçəsi 19, 2- ci korpus
**Məsləhət günləri və saatı:** 2 ci gün 09.00-10.00
**E-mail ünvanı:** *dadashzade.a.n@gmail.com*

**III. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**


1. Azərbaycan xalça sənəti: tarixi, məktəbləri, texnalogiyası. Vidadi Muradov. Bakı- "Elm"- 2013
2. "Azərbaycan Xalçaları". Heydər Əliyev Fondu.
3. Bakı, Şirvan, Quba xalçaları. Kataloq, Bakı- 2013
4. Elmi əsərlər. "Rəssam Kamil Əliyevə həsr edilmiş xüsusi nömrə" Naxçıvan, "Tusi" – 2022, Cild 18
5. "Azərbaycanın portret xalçalarının yaradılmasında xalçaçı rəssam Kamil Əliyevin rolu" Gülnarə Qənbərova. 2024
6. Cahangir Əhməd oğlu Hacıyev, Ləmbəli Oğuz Türk yurdu: dili və xalçalarındakı tarix (Bakı, Elm və Təhsil, 2024)
7. Unikal xalçalar müəllifi: Xalq rəssam Eldar Mikayılzadənin yubiley portreti / Z. Əliyev. Məqalə 2021
8. "Quba" adlı xalçaların tədqiqatı: Dərs vəsaiti/ Minaxanım Hüseynova. Bakı-2021
9. Xalça məmulatlarının naxış və texniki üslublarının tədqiqatı. Dərs vəsaiti/ Minaxanım Hüseynova. Bakı-2021
10. Qarabağın süjetli xalçaları: Zeynalova, Arzu Nizami qızı. sənətşünaslıq üzrə fəls.d-ru. Bakı- 2022
11. Gəncə-Qazax xalçaları.(Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında). Bakı- 2022
12. Lətif Kərimovun həyat və yaradıcılığı. Əliyeva, Kübra Muxtar qızı. Bakı-2023
13. Xalq rəssamı Kamil Əliyevin yaradıcılığı. Əliyeva, Kübra Muxtar qızı. Bakı-2023
14. Təbriz xalçaçılıq məktəbi. Əliyeva, Kübra Muxtar qızı. Bakı-2023
15. "A Study on the Form and Content of Iran's Four-Seasons Carpets" 2022. Abdollah Mirzaei, Ali Vandshoari, Shadi Zarnaghi.

**IV. Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa bir fənnin tədrisinə zərurət yoxdur.

**V. Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni zamanda başqa fənnin tədrisinə ehtiyac yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:** Müasir dövrdə milli-mədəni irsin qorunması, öyrənilməsi və gələcək nəsillərə ötürülməsi dövlət və cəmiyyət üçün mühüm əhəmiyyət daşıyır. Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan xalçaçılıq sənəti əsrlər boyu formalaşmış, zəngin bədii-estetik xüsusiyyətləri, rəng koloritinin rəngarəngliyi və naxış kompozisiyalarının dərin məzmunu ilə seçilmişdir. Azərbaycan xalçaçılığı yalnız məişət və təsərrüfat ehtiyaclarını ödəyən tətbiqi sənət nümunəsi deyil, həm də xalqın tarixi yaddaşını, dünyagörüşünü, estetik zövqünü və mənəvi dəyərlərini əks etdirən mühüm mədəni irs nümunəsidir.

Azərbaycan xalçaçılığının inkişafı ölkənin təbii-coğrafi şəraiti, qoyunçuluğun geniş yayılması, təbii boyaq bitkilərindən istifadə, eləcə də müxtəlif bölgələrdə formalaşmış yerli bədii ənənələrlə sıx bağlıdır. Qarabağ, Quba, Şirvan, Gəncə-Qazax, Təbriz və digər xalçaçılıq məktəbləri özünəməxsus texniki xüsusiyyətləri, ornamentik motivləri və kompozisiya quruluşu ilə fərqlənir. Bu fənn çərçivəsində Azərbaycan xalçaçılığının tarixi inkişaf mərhələləri, əsas xalça məktəbləri, xalça növləri, ornament və naxış sistemləri, texniki icra üsulları və bədii xüsusiyyətləri öyrənilir.

Fənnin məqsədi tələbələrə Azərbaycan xalçaçılıq sənəti haqqında sistemli nəzəri biliklər verməklə yanaşı, bu biliklərin praktiki tətbiqi üzrə bacarıq və vərdişlərin formalaşdırılmasına nail olmaqdır. Bununla yanaşı, fənnin tədrisi aşağıdakılara yönəlmişdir:

- Tələbələrdə milli-mədəni irsə marağın və estetik zövqün inkişafı;
- Azərbaycan xalçaçılığının tarixi, bədii və texniki xüsusiyyətlərini təhlil etmək bacarığının formalaşdırılması;
- Ornamentlərin, naxış kompozisiyalarının mənşəyini və semantik məzmununu izah etmək və əsaslandırmaq bacarığının inkişafı;
- Xalçaçılıq nümunələrini məktəblər üzrə fərqləndirmək, üslub və texnika baxımından müqayisəli təhlil aparmaq bacarığının inkişafı;
- Ənənəvi xalçaçılıq texnologiyalarından və bədii prinsiplərdən praktiki yaradıcılıq fəaliyyətində istifadə etmək bacarığının formalaşdırılması;
- Gələcək peşə fəaliyyətində Azərbaycan xalçaçılıq sənətinə dair əldə edilmiş bilik, bacarıq və vərdişlərdən səmərəli şəkildə istifadə etmək bacarığının inkişafı.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.
Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.
İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.
Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| **Bal aralığı (göstərilən ballar daxil olmaqla)** | **Hərflə işarəsi** | **Sözlə yazılışı** |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX. Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim mövzu planı**:

Mühazirə: 30 saat; Praktik məşğələ: 45 saat; **Cəmi: 75 saat.**

| **№** | **Tədris olunan mövzuların məzmunu** | **Saat** | **Tarix** |
|---|---|---|---|
| | | **Mühazirə** | |
| 1 | **Mövzu № 1.** Azərbaycanda xalça sənəti.<br>**Plan:**<br>1. Azərbaycan xalçaçılıq sənətinin tarixi.<br>2. Azərbaycanın məişətində xalça məmulatlarının yeri.<br>**Mənbə:** [1,2,3,6,9] | 2 | |
| 2 | **Mövzu № 2.** Xalçaçılıq sənətində ilk addımlar.<br>**Plan:**<br>1. Xalçanın texnologiyası.<br>2. Ölkədə boyaqçılıq sənətinin inkişafı.<br>3. Xalça istehsalında istifadə olunan xammal və materiallar.<br>**Mənbə:** [1,2,3,6,9,17] | 2 | |
| 3 | **Mövzu № 3.** Xalça sənətinin növləri: Xovsuz xalçalar<br>**Plan:** | 2 | |

| | | | |
|---|---|---|---|
| | 1. Bitki mənşəli toxuculuq məmulatları: Həsir, buriya və çətən<br>2. Palaz, Kilim.<br>3. Cecim, Ladı.<br>4. Şəddə, Vərni.<br>5. Zili, Sumax.<br>**Mənbə:** [1,2,3,17] | | |
| 4 | **Mövzu № 4.** Xalça sənətinin növləri: Xovlu xalçalar<br>**Plan:**<br>1. Azərbaycan xalça məktəbləri. Xovlu xalçalar.<br>2. Azərbaycan milli xalçalarının quruplaşdırılması və çeşidi.<br>**Mənbə:** [1,2,3,17 ] | 2 | |
| 5 | **Mövzu № 5.** Bakı xalçaçılıq qrupu.<br>**Plan:**<br>1. Bakı, Abşeron xalçaları.<br>2. "Xilə əfşan", "Xilə buta" xalçaları.<br>3. Bakı xalçalarında "buta" motivi.<br>**Mənbə:** [1,2,3,17] | 2 | |
| 6 | **Mövzu № 6.** Şamaxı, Şirvan xalçaçılıq sənətinin tarixindən.<br>**Plan:**<br>1. Şamaxı xalçalarının yaranma zərurəti.<br>2. Şirvan xalçaları.<br>3. "Ərçiman" xalçası.<br>**Mənbə:** [1,2,3,6,17 ] | 2 | |
| 7 | **Mövzu № 7.** Quba xalçaçılıq qrupu.<br>**Plan:**<br>1. XIX əsrdə Qubada xalçaçılığın inkişafı.<br>2. Namazlıq xalçalarında "Dünya açarı" simvolu.<br>3. Qonaqkənd xalısı. Xalı dizaynının mənşəyi, simvolikası və təkamülü.<br>**Mənbə:** [3,6,8,18 ] | 2 | |
| 8 | **Mövzu № 8.** Gəncə, Qazax xalçaçılıq qrupu.<br>**Plan:**<br>1. Gəncə xalçaçılıq qrupu.<br>2. Qazax- Borçalı xalçaçılıq qrupu.<br>**Mənbə:** [1,2,3,9,11 ] | 2 | |
| 9 | **Mövzu № 9.** Qarabağ xalçaçılıq qrupu.<br>**Plan:**<br>1. Qarabağ Qafqaz xalçalarının vətənidir.<br>2. "Malıbəyli" xalça naxışlarının semantikası.<br>3. "Çələbi" xalçası, onun mənşəi və simvolikası.<br>**Mənbə:** [1,2,3,9,10,19 ] | 2 | |
| 10 | **Mövzu № 10.** Təbriz xalçaçılıq qrupu.<br>**Plan:**<br>1. Təbrizdə xalçaçılığın inkişafı.<br>2. Təbriz xalçaları. ("Ovçuluq","Karaca" və s.)<br>3. "Dörd fəsil" xalçalarının forması.<br>4. "Şeyx Səfi" xalçasının yaranma tarixi və xalçada kompozisiya həlli.<br>**Mənbə:** [1,2,3,9,14,15 ] | 2 | |
| 11 | **Mövzu № 11.** Xalçaçılıqda ornament və simvollar.<br>**Plan:** | 2 | |

| | | | |
|---|---|---|---|
| | 1. Xalça üzərindəki bəzi naxışların semantikası.<br>2. Azərbaycan xalçalarında ov motivləri.<br>3. Vərni. Əjdaha motivi.<br>**Mənbə:** [1,2,3,6,9,17 ] | | |
| 12 | **Mövzu № 12.** Lətif Kərimovun həyat və yaradıcılığı<br>**Plan:**<br>1. Lətif Kərimovun xalçaçılığın inkişafında rolu.<br>2. Lətif Kərimovun əsərlərində nəbati elementlər.<br>**Mənbə:** [1,2,3,9,12,16] | 2 | |
| 13 | **Mövzu № 13.** Xalçaçı rəssam Kamil Əliyev (həyat və yaradıcılığı).<br>**Plan:**<br>1. Azərbaycan xalçasının inkişafında Kamil Əliyevin rolu.<br>2. Kamil Əliyevin xalçalarında dekorativ elementlər.<br>**Mənbə:** [1,2,3,4,9,13] | 2 | |
| 14 | **Mövzu № 14.** Eldar Mikayılzadə (həyat və yaradıcılığı).<br>**Plan:**<br>1. Eldar Mikayılzadənin xalçaçılıqda yaradıcılığı.<br>2. Eldar Mikayılzadənin əsərlərində müasirlik və dekorativlik.<br>**Mənbə:** [1,2,3,7,9] | 2 | |
| 15 | **Mövzu № 15.** Azərbaycan xalçalarının müasir vəziyyətləri.<br>1. "Azərxalça" nın fəaliyyəti.<br>2. Azərbaycanda xalça muzeyləri.<br>3. Dünya muzeylərindəki xalçalarımız.<br>4. Dünyanın ən qədim xalçası – Pazırıq.<br>**Mənbə:** [1,2,3,6,9] | 2 | |
| **Cəmi** | | **30 saat** | |

| № | Məşğələnin məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| 1 | Xalça naxışlarının karandaşla işlənməsi | 2 | |
| 2 | Xalça naxışlarından eskizlərin hazırlanması | 2 | |
| 3 | Naxışların akvarellə işlənməsi | 2 | |
| 4 | Naxışların konturlarının verilməsi | 2 | |
| 5 | Naxışların işlənib sona çatdırılması | 2 | |
| 6 | Buta naxışlarının - ana buta, evli buta, ana-bala buta naxışlarının işlənməsi | 2 | |
| 7 | Buta naxışlarından ibarət kompozisiyanın karandaşla qurulması | 2 | |
| 8 | Kompozisiyanın akvarellə işlənməsi | 2 | |
| 9 | Naxışların konturlarının verilməsi | 2 | |
| 10 | Kompozisiyanın işləyib sona çatdırması | 2 | |
| 11 | Hər hansı bir kiçik xalça kompozisiyasının işlənməsi metodu | 2 | |
| 12 | Xalça kopmozisiyanın eskizlərinin hazırlanması | 2 | |
| 13 | Xalça kompozisiyasının eskizlərinin hazırlanmasının davamı | 2 | |
| 14 | Eskizlərin kağız üzərində tam bir kompozisiya halında yerləşdirilməsi | 2 | |
| 15 | Kompozisiyanın kağız üzərində yerləşdirilməsinin tamamlanması | 2 | |
| 16 | Kompozisiya üzərində rəng işinin ilk mərhələsinin sulu boya ilə yerinə yetirilməsi | 2 | |

| | | | |
|---|---|---|---|
| 17 | Kompozisiyanın rənglənməsinin sulu boya texnikasından quaş texnikasıha keçidi | 2 | |
| 18 | Kompozisiyanın quaş texnikası ilə işlənməsi | 2 | |
| 19 | Kompozisiyanın quaş texnikası ilə işlənməsinin davamı | 2 | |
| 20 | Kompozisiya üzərində rənglə işləmənin son mərhələləri | 2 | |
| 21 | Kompozisiya üzərində tamamlanma bəzək işləri | 2 | |
| 22 | Kompozisiyada naxışların konturlarının verilməsi | 2 | |
| 23 | Kompozisiyanın işləyib sona çatdırılması (xalça eskizi) | 1 | |
| | **Cəmi:** | **45 s** | |

**XI. Fənn üzrə tələblər:**

- Bu fənn üzrə tələbələrdən aşağıdakı tələblərə riayət etmələri tələb olunur:
- Dərs məşğələlərində (mühazirə, seminar, praktik məşğələlər) mütəmadi iştirak etmək;
- Azərbaycan xalçaçılığının tarixi, əsas xalça məktəbləri, xalça növləri, ornament və naxış sistemləri barədə nəzəri bilikləri mənimsəmək;
- Xalçaçılıq nümunələrini bədii, texniki və üslub xüsusiyyətlərinə görə təhlil etmək bacarığına yiyələnmək;
- Verilən mövzular üzrə müstəqil işlər, slaydlar və təqdimatlar hazırlamaq;
- Praktik tapşırıqlar zamanı xalça ornamentləri və kompozisiya elementlərindən düzgün istifadə etmək;
- Seminar və müzakirələrdə fəal iştirak etmək, fikirlərini əsaslandırılmış şəkildə ifadə etmək;

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

- mühazirə, seminar, praktiki tapşırıqlar
- təqdimat və müzakirə
- müstəqil iş/araşdırma

**XIII. Fənn üzrə təlim nəticələri:**

**FTN 1.** Xalçaçılığın tarixi və inkişaf mərhələləri haqqında geniş məlumatlar əldə edəcəklər.
**FTN 2.** Xalçaçılığın bədii xüsusiyyətlərini və texnoloji üsullarını öyrənəcəklər.
**FTN 3.** Azərbaycanın xalça sənəti haqqında nəzəri məlumatlar və elmi biliklər əldə edəcəklər.
**FTN 4.** Azərbaycan xalça sənətinin ən geniş yayılmış motivlərini, ornamentlerini tanıyacaqlar.
**FTN 5.** Azərbaycan xalça məktəblərinin bədii və texniki xüsusiyyətlərinə görə fərqləndirməyi, təhlil etməyi bacaracaqlar.
**FTN 6.** Azərbaycan xalça məktəblərindən Quba və Şirvan xalça məktəbinin bədii xüsusiyyətlərini öyrənib, toxunduğu mərkəzləri tanıyacaqlar.
**FTN 7.** Gəncə və Qazax – Borçalı xalça məktəbi haqqında geniş məlumatlar əldə edəcəklər.

**XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

---

---

**XV. Kollokvium sualları:**

**I. Kollokvium sualları (00.0**

1. Azərbaycan xalçaçılıq sənətinin tarixi.
2. Azərbaycanın məişətində xalça məmulatlarının yeri.
3. Xalçanın texnologiyası.
4. Ölkədə boyaqçılıq sənətinin inkişafı.
5. Xalça istehsalında istifadə olunan xammal və materiallar.

6. Bitki mənşəli toxuculuq məmulatları: Həsir, buriya və çətən.
7. Palaz, Kilim
8. Cecim, Ladı
9. Şəddə, Vərni
10. Zili, Sumax
11. Azərbaycan xalça məktəbləri. Xovlu xalçalar.
12. Azərbaycan milli xalçalarının quruplaşdırılması və çeşidi
13. Bakı, Abşeron xalçaları.
14. "Xilə əfşan", "Xilə buta" xalçaları
15. Bakı xalçalarında "buta" motivi.

**II. Kollokvium sualları**

1. Şamaxı xalçalarının yaranma zərurəti.
2. Şirvan xalçaları.
3. "Ərçiman" xalçası.
4. XIX əsrdə Qubada xalçaçılığın inkişafı.
5. Namazlıq xalçalarında "Dünya açarı" simvolu.
6. Qonaqkənd xalısı. Xalı dizaynının mənşəyi, simvolikası və təkamülü.
7. Gəncə xalçaçılıq qrupu
8. Qazax- Borçalı xalçaçılıq qrupu
9. Qarabağ Qafqaz xalçalarının vətənidir.
10. "Malıbəyli" xalça naxışlarının semantikası.
11. "Çələbi" xalçası, onun mənşəi və simvolikası.
12. Təbrizdə xalçaçılığın inkişafı.
13. Təbriz xalçaları. ("Ovçuluq","Karaca" və s.).
14. "Dörd fəsil" xalçalarının forması.
15. "Şeyx Səfi" xalçasının yaranma tarixi və xalçada kompozisiya həlli.

## XVI. İmtahan sualları:

1. Azərbaycan xalçaçılıq sənətinin tarixi.
2. Azərbaycanın məişətində xalça məmulatlarının yeri.
3. Xalçanın texnologiyası.
4. Ölkədə boyaqçılıq sənətinin inkişafı.
5. Xalça istehsalında istifadə olunan xammal və materiallar.
6. Bitki mənşəli toxuculuq məmulatları: Həsir, buriya və çətən
7. Palaz, Kilim.
8. Cecim, Ladı.
9. Şəddə, Vərni.
10. Zili, Sumax.
11. Azərbaycan xalça məktəbləri. Xovlu xalçalar.
12. Bakı, Abşeron xalçaları.
13. "Xilə əfşan", "Xilə buta" xalçaları.
14. Şamaxı xalçalarının yaranma zərurəti.
15. Şirvan xalçaları.
16. "Ərçiman" xalçası.
17. XIX əsrdə Qubada xalçaçılığın inkişafı.
18. Namazlıq xalçalarında "Dünya açarı" simvolu.
19. Qonaqkənd xalısı. Xalı dizaynının mənşəyi, simvolikası və təkamülü.
20. Gəncə xalçaçılıq qrupu.
21. Qazax- Borçalı qrupu.
22. Qarabağ Qafqaz xalçalarının vətənidir.

23. "Çələbi" xalçası, onun mənşəi və simvolikası.
24. Təbrizdə xalçaçılığın inkişafı.
25. Təbriz xalçaları. ("Ovçuluq","Karaca" və s.)
26. "Dörd fəsil" xalçalarının forması.
27. "Şeyx Səfi" xalçasının yaranma tarixi və xalçada kompozisiya həlli.
28. Xalça üzərindəki bəzi naxışların semantikası.
29. Azərbaycan xalçalarında ov motivləri.
30. Vərni. Əjdaha motivi.
31. Lətif Kərimovun xalçaçılığın inkişafında rolu.
32. Lətif Kərimovun əsərlərində nəbati elementlər.
33. Azərbaycan xalçasının inkişafında Kamil Əliyevin rolu.
34. Kamil Əliyevin xalçalarında dekorativ elementlər.
35. Eldar Mikayılzadənin xalçaçılıqda yaradıcılığı.
36. Eldar Mikayılzadənin əsərlərində müasirlik və dekorativlik.
37. "Azərxalça" nın fəaliyyəti.
38. Azərbaycanda xalça muzeyləri.
39. Dünya muzeylərindəki xalçalarımız.
40. Dünyanın ən qədim xalçası – Pazırıq.

***S\f Azərbaycanda xalçaçılıq sənəti fənninin sillabusu 6001022-Təsviri icəsənət müəllimliyi ixtisası (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Pedaqogika, psixologiya və incəsənət kafedrasının 13 fevral 2026-cl il tarixli iclasında təsdiq olunmuşdur (Protokol №06)***

**Fənn müəllimi:** b/m. A.N.Dadaşova

**Kafedra müdiri:** dos. A.X.Əliyev